1_Layout 1 29.09.2022 15:49 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 19 (633)

30 sentyabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# SƏRKƏRDƏ QƏTİYYƏTİNİN İFADƏSİ

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Sərkərdə qətiyyətinin ifadəsi” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



### İlham Əliyevin Laçın bəyanatı Ermənistana və havadarlarına açıq mesaj idi

“İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz”.

Qalib Komandan kimi Şərqi Zəngəzura növbəti səfəri zamanı İlham Əliyev bir daha Ermənistanla sülh danışıqları ərəfəsində bu ölkənin rəhbərliyinin son günlərdəki davranışına, əsassız iddialarına və Zəngəzur dəhlizinin açılması istiqamətindəki fəaliyyətsizliyinə toxunaraq bəyan etdi ki, heç kim Azərbaycanın qabağında dura bilməz. Əgər Ermənistanda yenə də revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Sözü imzası qədər keçərli olan İlham Əliyev bu qətiyyətli fikirləri ilə məğlub ölkəyə bir daha xəbərdarlıq edərək üzərinə götürdüyü öhdəliyi reallaşdırmağa çağırdı. Qalib Komandan revanşistlərə, Ermənistan rəhbərliyinə çatdırdı ki, boş-boş bəhanələr səsləndirmək, köhnə iddialardan əl çəkməmək yalnız özlərinə ziyan vuracaq. Çünki Azərbaycan Qarabağ məsələsini artıq həll edib. Nə “status” var, nə də “Dağlıq Qarabağ” münaqişəsi.

### Bayrağımız Zəfərimizin rəmzidir

İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində bayrağımızı ucaldaraq bir daha düşmənə gözdağı verdi və bəyan etdi ki, Azərbaycan haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıdır və onun məğrur, qəhrəman hərbçisi öz ərazi bütövlüyünü qoruyur. Şanlı zəfərimiz Azərbaycanın nəyə qadir olduğunu bütün dünyaya sübut edib.

Azərbaycan Prezidenti Laçında səsləndirdiyi fikirlərlə Ermənistana növbəti dəfə çıxış yolunu göstərdi. Ermənistan rəhbərliyi İlham Əliyevin bu bəyanatından dərs çıxarıb onun təklifləri ilə razılaşsa, öz xalqının gələcəyi üçün müsbət addım atmış olar.

Tarixə qısa ekskurs edərək İlham Əliyevin İkinci Qarabağ müharibəsi başlamazdan öncə və savaşın getdiyi günlərdə Ermənistana göndərdiyi mesajlara diqqət etsək şahidi olarıq ki, Azərbaycan Prezidenti əsl sərkərdə qətiyyəti ilə bütün fikirlərinin üstündə durub və qarşıya qoyulan məqsədlərə nail olub. Savaş başlayan gündən İlham Əliyev bəyan etdi ki, erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından rədd olub getsin. Xarici KİV-ə verdiyi müsahibələrdə də şərtlərini açıqladı. Bəyan etdi ki, Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə Azərbaycan istənilən vaxt döyüşləri dayandırmağa hazırdır: “Əgər Ermənistanın baş naziri işğal olunmuş əraziləri boşaldacağına dair ictimaiyyət qarşısında üzərinə öhdəlik götürərsə, biz dayanarıq”.

Göründüyü kimi, İlham Əliyev əvvəlcədən Ermənistana çıxış yolunu göstərirdi. Amma sonda yenə də Azərbaycan Prezidentinin söylədikləri gerçəkləşdi.

Müharibə dövrünə nəzər yetirsək, digər bir həqiqətə də şahidlik edərik. Belə ki, savaş gedən günlərdə Ermənistanın rəzil günə düşdüyünü görən havadarları, bəzi beynəlxalq təşkilatlar, dövlətlər Azərbaycana təzyiqlər göstərilməsinə cəhd etsələr də, Ali Baş Komandanın qətiyyəti zərrə qədər sarsılmadı. Əksinə, İlham Əliyev həmin qüvvələrə dəfələrlə mesaj ünvanlayaraq bəyan etdi ki, Azərbaycan ədalət, milli qürur savaşına başlayıb və buna görə də heç kim onu dayandıra bilməz.

İki il sonra İlham Əliyev Laçından həmin qüvvələrə, Azərbaycanı boş yerə ittiham edənlərə, Ermənistanın sülh sazişinə imza atmasına əngəl yaratmaq istəyənlərə üzünü tutaraq dedi ki, ağlınızı başınıza yığın, onsuz da acınacaqlı durumda olan bir ölkəni uçuruma yuvarlamayın, Ermənistanın yeganə çıxış yolu sülh sazişini imzalamaqdır.

### Yenə də peşman olan tərəf Ermənistan olacaq

Prezident bir daha xatırlatma edərək bəyan etdi ki, Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif edib. Bu ölkənin rəhbərliyi sözdə bu təklifi qəbul etsə də, əməldə görünmür.

Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən üçtərəfli görüşdə də İlham Əliyevin 5 prinsipi ilə razılaşdığını səsləndirmişdi.

Bundan sonra tərəflər sülh müqaviləsinin mətninin hazırlanması üçün XİN rəhbərlərinə bir ay vaxt vermişdilər. Amma erməni təxribatları bir daha göstərdi ki, bu ölkə yenə də öz xislətinə uyğun hərəkət edir. Yəni yenə də vaxt uzatma taktikasını seçib...

İlham Əliyev bu məsələyə bir daha toxunaraq vurğuladı ki, Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Amma hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Demək olar, heç bir praktiki iş aparılmayıb.

Bu azmış kimi, üstəlik, son aylar ərzində dəfələrlə Azərbaycana qarşı hərbi təxribatlar törədilib. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənib və özü də bu minalar 2021-ci ildə basdırılıb. Yəni müharibədən sonra. Prezident bunu Azərbaycana qarşı açıq terror hərəkəti adlandıraraq bildirdi ki, müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Yəni Azərbaycana qarşı müharibə davam edir.

Qalib Komandan qətiyyətlə vurğuladı ki, buna imkan vermək olmaz: “Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq”.

Göründüyü kimi, Ermənistan rəhbərliyi yenə də havadarlarına arxalanaraq sülh danışıqları prosesini qəsdən uzadır. Amma bu ölkənin rəhbərliyi yaxşı anlayır ki, vaxtı uzatmaq onların özlərinə zərər vurur. Onsuz da Azərbaycan torpaqlarını işğaldan azad edib. Hazırda Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş yenidənqurma işləri aparılır. İşğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır və o bayrağın kölgəsi Zəngəzur dəhlizinə düşür. Tezliklə Azərbaycan bu dəhlizin də açılmasına nail olacaq.

İlham Əliyevin söylədiyi kimi, üçrəngli bayrağımız o torpaqlarda əbədi dalğalanacaq və Azərbaycan xalqı doğma yurd-yuvasında əbədi yaşayacaq!

# Nazir Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və vətəndaşların bölgələrdə qəbulu cədvəlinə uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 22-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəhər Baş Polis İdarəsi-nin inzibati binasında Gəncə, Göygöl, Samux, Kəlbəcər, Daşkəsən, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Şəmkir şəhər və rayonlarından qəbula gələn vətəndaşların müraciətlərini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Daha sonra general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 394 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan 68-i Vətən müharibəsi iştirakçısı, 2-si isə şəhid ailələrinin üzvləri olub.

Sonda Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha effektiv tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.09.2022 15:51 Page 1



# ANIM GÜNÜ İLƏ BAĞLI DAXİLİ QOŞUNLARDA TƏDBİRLƏR KEÇİRİLİB

Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Silahlı Qüvvələrimiz işğal altındakı torpaqlarımızın azad edilməsi



məqsədilə düşmənə qarşı əks-hücum əməliyyatlarına başladı. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda 44 gün davam edən şərəfli mübarizədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları yüksək fədakarlıq nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdilər. Uzun illər düşmən tapdağı altında olan torpaqlarımız şəhidlərimizin və qazilərimizin canı və qanı bahasına işğaldan azad edildi.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz böyük hərbi zəfər qazandı, Azərbaycanı qalib dövlət zirvəsinə ucaltdı. Şəhidlərimiz bütün dünyaya Azərbaycan xalqının yenilməz döyüş ruhuna malik olduğunu göstərdilər.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını




fəda edən şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, respublikamızda 27 sentyabr - Anım Günü təsis olunub. Bununla əlaqədar olaraq, ölkəmizin hər bir bölgəsində şəhidlər anılır, onların məzarları ziyarət olunur, hər birinin ruhuna dualar oxunur. Hər bir şəhidin əziz xatirəsi ehtiramla yad edilir.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının imzaladığı plana əsasən, Daxili Qoşunların hərbi hissələrində də Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilib. Şəhidlər xiyabanı və şəhidlərin məzarları, həmçinin, şəhid hərbi qulluqçuların ailə üzvləri ziyarət olunub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında aparılan döyüş əməliyyatları, hərbi qulluqçularımızın göstərdikləri şücaət və qəhrəmanlıqlar barədə şəxsi heyətlə məşğələlər keçirilib, Vətən müharibəsi qəhrəmanları haqqında çəkilən sənədli və bədii filmlər, videoçarxlar nümayiş etdirilib.

Çıxışlar zamanı bir daha qeyd olunub ki, ürəyi Vətən sevgisi ilə döyünən, öz şücaətləri ilə ölümsüzləşən bu igidləri, əsl fədailəri xalqımız heç vaxt unutmayacaq, gələcək nəsillər şəhidlərin xatirəsini ehtiramla anacaqlar.

**Mətbuat xidməti**

# HƏRBİ XİDMƏTDƏ ƏZMKARLIQ VƏ NÜMUNƏ GÖSTƏRMƏYİ BACARAN BÖLMƏ

16073 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi fəaliyyəti ilə fərqlənən bölmələrindən biri də mayor Elnur Səmədovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Bölmə öz vəzifələrindən irəli gələn bütün tapşırıqların öhdəsindən layiqincə gəlir. Cəlb olunduğu əməliyyatlarda qarşısına qoyulan tapşırıqları yüksək səviyyədə icra etməsi bunu



deməyə əsas verir.

“Bölmənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumunun yüksəldilməsi, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Bölməyə təhkim olunmuş döyüş texnikasının, silah-sursat və əmlakların vəziyyətinin diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi vacib amillərdir”. Bu sözləri mayor E.Səmədov dedi. Əlavə etdi ki, bölmə istənilən tapşırığın keyfiyyətlə və vaxtında icrasına hər zaman hazırdır.

Hərbi qulluqçumuz 2007-ci ilin fevral ayından Daxili Qoşunların sıralarındadır. 16075, 25033 saylı hərbi hissələrdə, 2020-ci ilin may ayından isə 16073 saylı hərbi hissədə xidmət edir.

O, bölmənin uğurlu fəaliyyətindən bəhs edərkən söylədi ki, şəxsi heyətlə mütəmadi olaraq keçirilən təlim və məşğələlərin, həmçinin, aparılan tərbiyə işinin əsas məqsədi hərbi qulluqçuların əzmkarlığını, dözümlülüyünü artırmaqdır: “Möhkəm hərbi intizam, nümunəvi xidmət və yüksək döyüş hazırlığı bizim əsas prinsipimizdir. Bu məqsədlə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Həmçinin, kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması mövzusunda keçirilən məşğələlər zamanı tədris olunan biliklərin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi diqqət mərkəzində saxlanılır”.



Tərbiyə işi saatlarında bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlər aparılır. Aparılan söhbətlərin kollektivin möhkəmləndirilməsində mühüm rol oynadığını söyləyən mayor E.Səmədov qeyd etdi ki, əsas diqqət hərbi qulluqçularda Vətənə sədaqət, dövlətə və dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlərin aşılanmasına yetirilir.

Komandir təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da diqqət yetirildiyini, şəxsi heyətin bilik səviyyəsinin artırılmasının, eləcə də peşə vərdişlərinin təkmilləşdirilməsinin bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı. Qeyd olunanlar onu deməyə əsas verir ki, hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi bölməsi bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcək, əldə edilən müsbət nəticələri qoruyub saxlayacaqdır.

**kapitan Xədicə Hacızadə**

# KOMENDANT BÖLÜYÜNÜN ŞƏXSİ HEYƏTİ NÜMUNƏVİ XİDMƏTİ VƏ SAYIQLIĞI İLƏ SEÇİLİR

67987 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür. Başlıca vəzifəsi Döyüş Bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan komendant bölüyündə xidmət edən hərbi qulluqçular tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün aparılması olduqca vacibdir. Etibarlı mühafizənin təmin olunması isə qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır.

Bölük komandirinin müavini baş leytenant Ülfət Məmmədov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilməmişdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır.

Baş leytenant Ü.Məmmədov, həmçinin, xidmətin aparılmasında vacib olan şərtləri diqqətə çatdıraraq söylədi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Bununla yanaşı, postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi başlıca amildir. Yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.







O, bölüyün intizamlı hərbi qulluqçuları kimi kiçik çavuş Elməddin Nəsrəddinli, baş əsgər Rəhman Mirzəyev və əsgər Elşən Rüstəmovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını bildirdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**kapitan Şahin Cəfərzadə**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK BATAREYA HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİNDƏNDİR

16073 saylı hərbi hissənin yüksək döyüş hazırlığına malik bölmələrindən olan minaatan batareya xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti hərbi intizamı ilə seçilir, qarşıya qoyulan mühüm, eyni zamanda, məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlir, onları keyfiyyətlə icra edir. Qeyd edim ki, batareya cari ilin yekun yoxlamasının nəticələrinə əsasən hərbi hissənin əsgəri bölükləri arasında ikinci yerə layiq görülüb. Bu işdə batareyanın komandiri baş leytenant Niyaməddin Ələkbərlinin fəaliyyəti danılmazdır. O, 2014-cü ildən Daxili Qoşunların sıralarında, 2018-ci ildən isə 16073 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. 2022-ci ilin may ayından hazırkı vəzifədədir.

Baş leytenant N.Ələkbərli ilə söhbət zamanı məlum oldu ki, döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləməsi üçün bölmələri atəş dəstəyi ilə təmin etmək, düşmənin idarəetmə məntəqələri, atəş nöqtələri və yüngül zirehli texnikalarını, eləcə də düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək batareyanın üzərinə qoyulan əsas tapşırıqlardır. Eyni zamanda, düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.





Tapşırıqların yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olması vacibdir. Bu məqsədlə təsdiq edilmiş müvafiq cədvəllərə əsasən şəxsi heyət praktiki məşğələlərə cəlb olunur. Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində atış və atışın idarə olunması, batareya hücumda, batareya müdafiədə mövzularında təlimlər keçirilir, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri və təhlükəsizlik qaydaları şəxsi heyətə öyrədilir.

Batareya komandiri onu da vurğuladı ki, şəxsi heyət təlim və məşğələlərə məsuliyyətlə yanaşır, eləcə də nizam-intizam qaydalarına ciddi riayət edir. O əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən tapşırığı müvəffəqiyyətlə yerinə yetirmək qabiliyyətindədir.

Zabit funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş çavuş Şəhriyar Mikayılov, kiçik çavuş Sərvət Abdulheyov, əsgərlər Amil Abbasov, Elmir Allahverdiyev, Bədir Məhərrəmovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# BAXIŞ MÜSABİQƏSİNİN NƏTİCƏLƏRİ MƏLUM OLUB

Avqust ayının 1-dən 31-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində, hərbi hissələrdə və Təlim mərkəzində təbliğat-təşviqat vasitələrinə, özfəaliyyət kollektivlərinə baxış müsabiqəsi keçirilib.

Müsabiqə zamanı bütün hərbi hissələrdə təbliğat və təşviqat işinin hərbi qulluqçuların hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsinə təsiri, özfəaliyyət kollektivlərinin fəaliyyəti yoxlanılıb, hazırlanan proqramlara əsasən çıxışları izlənilib və qiymətləndirilib. Təbliğat və təşviqat işinin qiymətləndirilməsi zamanı hərbi şəhərciklərin və qərargahların, bölmələrin ictimai-siyasi və mədəni-maarif işləri otaqlarının, qarovul məntəqələrinin, idman və təlim şəhərciklərinin, görüş otaqlarının tərtibatı yoxlanılıb. 12318, 16076 və 25032 saylı hərbi hissələr müsbət cəhətdən fərqləniblər.

Özfəaliyyət kollektivlərinə baxış müsabiqəsi keçirilərkən proqramın rəngarəngliyi, müxtəlif janrlar üzrə ifa məharəti, səhnədə çıxışların nizamı və düzgün ardıcıllığına diqqət yetirilib. Musiqi alətlərinin ahəngdar ifası, yumoristik səhnəciklərin məzmunu və hərbi yönümlülüyü, hərbi-vətənpərvərlik mövzularının dolğun əks olunması baxımından 16075, 99713, 67987 saylı hərbi hissələrin özfəaliyyət kollektivləri daha çox seçilib. 16076, 25032 və 16077 saylı hərbi hissələrdə də istedadlı hərbi qulluqçulardan ibarət özfəaliyyət kollektivləri diqqətəlayiq proqramlar hazırlayıblar.



Qeyd edək ki, baxış müsabiqəsinin nəticələrinə görə fərqlənmiş hərbi hissələr, eyni zamanda, xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçular Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının və hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 29.09.2022 15:54 Page 1



# MEHDİYEVLƏR AİLƏSİ GÖSTƏRİLƏN QAYĞIDAN RAZIDIR

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı, şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnəkdir.

Ölkə başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Vətən müharibəsindən ötən iki il ərzində şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqətdə saxlanılır.

Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən hərbi hissə komandanlığının və bir neçə hərbi qulluqçunun şəhid hərbi qulluqçumuz baş çavuş Surxay Mehdiyevin Quba şəhərində yaşayan ailəsinə baş çəkmələri göstərilən qayğının təzahürüdür.

Baş çavuş S. Mehdiyev 1985-ci il dekabrın 7-də Ağdam rayonunun Xıdırlı kəndində anadan olub. 1993-cü il iyulun 23-də rayon erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra Mehdiyevlər ailəsi əvvəlcə Bakı şəhərində məskunlaşıb, bir müddətdən sonra Quba şəhərinə köçüblər. Surxay da elə burada böyüyüb boya-başa çatıb. O, Quba şəhərində yerləşən şəhid Hacıbaba Əliyev adına 1 saylı tam orta məktəbi bitirib. Uşaqlığından fəallığı və savadı ilə həmyaşıdlarından seçilib. Bu fəallığına görə müəllimləri Surxayın bir sinif yuxarı keçirilməsini təklif etsələr də, ailəsi buna razı olmayıb.

Anası Rəsmiyyə xanım dedi ki, Surxay vətənpərvər, qoçaq, igid gənc idi. Öz tərbiyəsi, əxlaqı və davranışı ilə hər kəsin sevgisini, hörmətini qazanmışdı. Doğulduğu torpaq işğal altında olduğu üçün Surxayın ən böyük arzusu Qarabağın işğaldan azad olunması idi. Surxay Ağdamı görmək, həm də orada yaşamaq istəyirdi. Məktəb illərindən idmana xüsusi maraq göstərən şəhid hərbi qulluqçumuz kikboksinq, karate və taekvondo ilə məşğul olub, müxtəlif yarışlara qatılıb, diplom, fərman və medallarla mükafatlandırılıb.



Surxay hər zaman yaxınlarının qayğısına qalıb. Atasını itirəndən sonra ailənin maddi çətinliklərini öz üzərinə götürüb. 2004-cü ildə orta təhsilini başa vurduqdan sonra 2006-cı ilin aprel ayınadək Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətdən tərxis olunduqdan sonra bir müddət mühafizəçi işləyib. 2009-cu ilin sentyabr ayından o, Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidməti 16073 saylı hərbi hissədə keçib. Xüsusi təyinatlı dəstədə müxtəlif vəzifələrdə xidmət edib. Nümunəvi xidməti ilə komandanlığın etimadını doğruldub.

Xüsusi təyinatlı olaraq daim özünü döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlayıb. Torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərin başlayacağı günü səbirsizliklə gözləyib. Vətən müharibəsi ərəfəsində Surxay və xidmət etdiyi bölmənin digər hərbi qulluqçuları xüsusi təyinatlıların təlim toplanışında iştirak ediblər. Bu təlim toplanışında onların praktiki hazırlığı digər bölmələrdən heç də geri qalmayıb.

2020-ci ilin sentyabr ayının 27-də Vətən müharibəsi başlayarkən 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları ön cəbhədə ayrı-ayrı qrupların tərkibinə bölünərək müxtəlif istiqamətlərdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunublar. Surxayın döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərindən keçib. Düşmənin müdafiə xəttinin yarılması, onun mövqelərinin ələ keçirilməsi, bir sıra yaşayış məntəqələri və yüksəkliklərin işğaldan azad olunması uğrunda döyüşlərdə qətiyyətlə vuruşub, avtomat silahı ilə onlarla işğalçını məhv edib.

Döyüşçü yoldaşlarının söylədiklərinə görə, Surxay hərbi xidmət dövründə olduğu kimi, döyüşlərdə də tərəddüdsüz güvənilə bilən silahdaş olub. Düşmən mövqelərinin darmadağın edilməsində şücaətlər göstərib. O, 2020-ci il oktyabrın 19-da Füzuli-Xocavənd istiqamətində (bəzi döyüşçülər bu ərazinin Cəmilli kəndinin yaxınlığında olduğunu deyirlər) gedən döyüş zamanı hərbi qulluqçularımızın yerləşdikləri mühüm mövqenin düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulması nəticəsində güllə və mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub. 2020-ci il oktyabrın 24-də Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.






Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş S.Mehdiyev ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Mərhum hərbi qulluqçumuzun anası, qardaşı, xanımı və övladları Quba rayonunun Dəvədabanı yaşayış massivində yaşayırlar. Qızı Ayşə və oğlu Zülfi onun yadigarlarıdır. Bütün yaxınları, ailəsi Surxay barədə böyük sevgi ilə danışırlar. Həyat yoldaşı Vüsalə xanım da Surxay haqqında maraqlı və yaddaqalan xatirələrini bizimlə bölüşdü. Söylədi ki, o, həm qayğıkeş həyat yoldaşı, həm də övladlarına dərin sevgi ilə bağlı olan ata idi: "Surxayla birlikdə yaşadığımız günlər çox gözəl idi. Hamımız onun üçün çox darıxırıq. Qızım Ayşə, oğlum Zülfi hər gün atasının şəkillərini öpür. Ürəyimiz onun üçün nə qədər darıxsa da, Surxayın Vətən uğrunda, müqəddəs amal naminə şəhid olduğunu bilirik. Yeganə təsəllimiz odur ki, Surxay düşməndən qisasını aldı, onun kimi oğulların fədakarlığı başımızı uca edən qələbəmizə yol açdı. Biz onunla hər zaman fəxr edəcək, qürur duyacağıq".

Qeyd edim ki, Daxili İşlər Nazirliyinin rəhbərliyi, Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailəsinə xüsusi diqqət və qayğı göstərilir. Şəhid ailəsinə baş çəkərkən də ailə göstərilən qayğıdan razı olduqlarını bildirərək, buna görə dərin minnətdarlıqlarını ifadə etdilər.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

# VƏTƏNƏ SƏDAQƏT VƏ DÖYÜŞÇÜ QƏTİYYƏTİ NÜMUNƏSİ

44 günlük Vətən müharibəsində qazandığımız böyük hərbi zəfər nəticəsində torpaqlarımızın işğalına son qoyuldu, təcavüzkar Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bütün beynəlxalq aləm dövlətimizin hərbi gücünü gördü. Xalqımızın yetişdirdiyi mərd və fədakar oğullar gələcək nəsillərə örnək olacaq şərəfli tarix yazdılar. Belə oğulların canı və qanı bahasına əldə edilmiş qələbə hər birimiz üçün müqəddəsdir.

Vətən müharibəsi qazisi, istefada olan baş əsgər Allahverdiyev Kamran Elman oğlu Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının layiqli döyüş yolu keçmiş sabiq hərbi qulluqçularından biridir. O, 1998-ci il iyulun 20-də Siyəzən şəhərində anadan olub. Elman Allahverdiyev və Dürdanə Allahverdiyevanın üç övladından ən kiçiyidir. Zəhmətkeş ailədə böyüyərək ləyaqətli və vətənpərvər gənc olaraq yetişdirilib.

Siyəzəndəki Cəfər Cabbarlı adına 1 saylı tam orta məktəbdə 11 il təhsil alıb. Özünün dediyinə görə, orta məktəbdə qiymətləri yaxşı olub, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərindən fərqlənib. Yeniyetmə yaşlarından idmanın boks növünə maraq göstərib.

2016-cı ilin iyul ayının 21-də Kamran müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 99713 və 17072 saylı hərbi hissələrində xidmət edib. 17072 saylı hərbi hissənin komendant bölüyündə xidmət edərkən ona "baş əsgər" hərbi rütbəsi verilib. 2018-ci ilin yanvar ayında o, öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-sanitarı və sonra atıcısı vəzifələrinə təyin olunub. Hərbi xidməti dövründə komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb. Müxtəlif kütləvi tədbirlər və koronavirus infeksiyası ilə bağlı karantin rejiminin təmin olunması zamanı qarşısına qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib. Döyüş və mənəvi-psixoloji hazırlığı baxımından hərbi qulluqçular arasında müsbət cəhətdən fərqlənməyi bacarıb. Təhkim olunmuş silah və xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini, istifadə qaydalarını uğurla mənimsəməsi praktiki təlimlərdə də özünü büruzə verib. Daim hərbi biliklərini artırmağa çalışıb.

2020-ci ilin sentyabr ayının 27-də Ermənistanın hərbi təcavüzünə qarşı Vətən müharibəsi başladıqda minlərlə silahdaşı kimi, Kamranın da həyatının ən çətin və şərəfli sınaq məqamı yetişib. Onun xidmət etdiyi bölmənin şəxsi heyəti həmin vaxt 16077 saylı hərbi hissəyə göndərilib. Orada olduqları müddətdə ehtiyat qüvvə kimi döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıq görülüb. Bundan əlavə, Ağdam rayonunun ərazisində patrul xidmətinə cəlb ediliblər.

Oktyabrın 15-dən etibarən bölmənin şəxsi heyəti Füzuli rayonunun ərazisində yerləşdirilərək, Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə birlikdə bu istiqamətdə azad olunmuş torpaqlarımızın müdafiəsində dayanıb. Füzuli rayonunda iştirak etdiyi ilk döyüş əməliyyatlarından başlayaraq Kamran düşmənə qarşı tutarlı atəş zərbələri endirib. Füzuli şəhərində işğalçıların pusqusuna düşüblər, ancaq döyüşçülərimiz qətiyyət göstərərək düşmənin atəş nöqtələrini susdurmağı bacarıblar.

Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində axtarış-müşahidə tədbirlərinə, bir sıra hərbi obyektlərin mühafizəsinə, ətrafdakı ön mövqelərin müdafiəsinə cəlb olunan Kamran düşməndən qalmış silah-sursatın tapılmasında da sayıqlıq göstərib.

Noyabrın 6-da verilən döyüş tapşırığına əsasən, Şuşa istiqamətində hərəkətə başlayıblar. Xocavənd və Xocalı rayonlarının çətin relyefə malik ərazilərindən keçiblər. Topxana meşəsinədək hərbi avtomobillərlə daşınıblar. Daşaltı kəndinədək piyada irəliləyiblər. O vaxt Şuşa uğrunda həlledici döyüşlər gedirdi, qorxaq erməni hərbçiləri döyüşçülərimizin həmlələri qarşısında vahimələnərək geri çəkilir, öz postlarından qaçırdılar. Noyabrın 8-də Şuşanın işğalına son qoyulması, şəhər üzərində üçrəngli bayrağımızın qaldırılması böyük coşqu və ruh yüksəkliyi ilə qarşılanıb.



Noyabrın 9-da onlara Şuşada axtarış apararaq işğalçıların diversiya-kəşfiyyat qruplarının sızıb-sızmadığını yoxlamaq, şəhərətrafı mövqeləri möhkəmləndirmək tapşırılıb. Şuşanın yaxınlığında olarkən ətraf yüksəkliklərdən düşmənin minaatanla atəşinə məruz qalıblar. Minaatan mərmilərinin partlayışı nəticəsində Cahangir adlı hərbi qulluqçumuz şəhid olub, Kamran və silahdaşı Şəhriyar isə ağır yaralanıblar. İlk tibbi yardım göstərildikdən sonra yaralılar arxaya təxliyyə ediliblər. Təxliyyə zamanı onları daşıyan avtomobil düşmən tərəfindən atəşə tutulub. Qazi Hadrut qəsəbəsinə çatdırıldıqlarını, orada növbəti tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Mərkəzi Xəstəxanasına aparıldıqlarını dedi. Xəstəxanadan isə Kamran Daxili Qoşunların Hərbi Qospitalına göndərilib. Hərbi həkimlərimiz tərəfindən o, cərrahi əməliyyat olunub. Bununla yanaşı, bir müddət sonra Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda müalicə kursu keçib. Tibbi sənədlərində "partlayış travması, boynun yumşaq toxumalarının, sağ saidin, biləyin, əlin odlu silah qəlpə yaralanmasından sonrakı kobud çapığı, böyük ölçülü yumşaq toxuma defekti, said sümüklərinin aşağı üçdə birinin, kürək, bilək və IV-V daraq sümüklərinin qəlpəli sınıqları, sümük defekti, çoxsaylı metal qəlpə, əlin qüsurlu vəziyyəti, daimi ağrı sindromu, sağ yuxarı ətrafın funksiyasının mühüm dərəcədə pozulması" diaqnozu, habelə yaralanmanın digər fəsadları öz əksini tapıb.

Həm dinc, həm də müharibə dövrlərində hərbi xidmətə yararsız hesab edilərək, III qrup əlil olaraq 2021-ci ilin mart ayında Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Pərvin Ələskərov bildirdi ki, Kamranı 2018-ci ildən tanıyır. Hərbi xidmətdə və müharibə zamanı döyüşçünün qrup komandiri olduğunu nəzərə çatdırdı: "Kamran intizamlı, özünə qarşı tələbkar, yüksək döyüş hazırlığına malik hərbi qulluqçu olub. Qarşısına qoyulan tapşırıqları düzgün və vaxtında yerinə yetirib. Vətən müharibəsində cəsur döyüşçü olaraq fəal iştirak edib. Yaralanarkən yanında olmuşam, təxliyyə qrupu gələnə qədər qanaxmanın qarşısını almışıq. Yaralıların təxliyyəsinin təşkilində dəstə komandirimiz polkovnik-leytenant Yavər Məmmədovun xüsusi rolu olub".

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, Vətən müharibəsi iştirakçısı baş əsgər Murad Məmmədov məlumat verdi ki, Kamranla tanışlığı 2018-ci ilin noyabr ayında başlayıb: "Hər ikimiz eyni dəstənin tərkibində xidmət etmişik. O, nümunəvi xidmətilə seçilib. Hərbi kollektivdə yoldaşlarına həmişə hörmətlə yanaşıb. Etibarlı dostdur. Vətən müharibəsində qorxmaz hərbi qulluqçu kimi vuruşub. Qazilik şərəfli məqamdır və Kamran bu adı döyüş sınağından alnıaçıq keçərək qazanıb".

Vətən müharibəsi qazisi, ehtiyatda olan əsgər Şəhriyar İsmayılov da Kamranla birgə xidmət edib və döyüş yolu keçib. Qeyd etdi ki, o, hərtərəfli hazırlığa malik və bacarıqlı hərbi qulluqçu olub. Müharibədə vətənpərvər döyüşçü kimi torpaqlarımızın işğaldan azad olunmasına öz töhfəsini verib.

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə baş əsgər K.Allahverdiyev "Füzulinin azad olunmasına görə" medalı, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

Qazinin qohumu Zahid Qafarov Vətən müharibəsində Müdafiə Nazirliyinin hərbi qulluqçusu olaraq iştirak edib, II qrup əlildir.

Siyəzən şəhərində yaşayan Kamran səhhəti ilə bağlı müalicəsini davam etdirir. Silahdaşları onu yaddan çıxarmır, həmişə əlaqə saxlayırlar. Vətən müharibəsi mövzusunda keçirilən ictimai tədbirlərə dəvət olunur. Dövlətimizin qayğısı, ailəsinin dəstəyi, silahdaşlarının diqqəti hər bir qazi üçün mühüm mənəvi dayaq amilidir. Vətənə sədaqət nümunəsi göstərmiş Kamran və digər qazilər xalqımızın ləyaqətli övladlarıdır.

**Yalçın Abbasov**

4_Layout 1 29.09.2022 15:56 Page 1



# HƏRBİ QULLUQÇULARIMIZ NARDARANDA POLİSLƏ BİRGƏ İCTİMAİ TƏHLÜKƏSİZLİYİ TƏMİN EDİRLƏR

Bu gün 67987 saylı hərbi hissə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir. Əminliklə qeyd etmək olar ki, ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissənin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir.

Məlum olduğu kimi, 2015-ci il noyabrın 26-da Nardaran qəsəbəsində baş vermiş hadisələrdən sonra Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin hərbi qulluqçuları polis orqanlarının əməkdaşları ilə birlikdə burada xidmətə cəlb olunurlar.

Şəxsi heyətin qəsəbədə xidmətinin təşkili haqqında məlumat toplamaq və fotoçəkilişlər aparmaq məqsədilə orada oldum. Burada polislə birgə hərbi hissənin qoşun naryadının istifadəsinə verilən binada mövcud müasir şərait hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparmaları üçün zəmin yaradır.

Qoşun naryadı rəisi baş leytenant Aruz Abbaszadə bildirdi ki, qəsəbədə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üçün tərtib olunmuş xidmətaparma cədvəlinə əsasən, bölmənin hərbi qulluqçuları növbəli şəkildə xidmətə çıxırlar. Qəsəbə daxilində həm piyada marşrut üzrə, həm də stasionar postlarda xidmət təşkil olunur. Hər gün xidmətə cəlb edilən şəxsi heyətin tam tərkibdə olması, ekipirovkası və silahlanması postlara çıxarkən, həmçinin, postlardan qayıdarkən yoxlanılır.



Baş leytenant A.Abbaszadə xidmətin idarə olunması və nəzarətdə saxlanılmasında qoşun naryadı rəisinin köməkçisi gizir Pərvin İbişovun fəaliyyətini də qeyd etdi. Gizir P.İbişov diqqətə çatdırdı ki, qəsəbədə yaşayan sakinlərin təhlükəsizliyinin təmin olunması üçün xidmət ayıq-sayıq aparılır. Belə ki, qəsəbəyə giriş-çıxış zamanı vətəndaşların sənədləri yoxlanılır, nəqliyyat vasitələrinə baxış keçirilir, hər hansı bir şübhəli şəxs və əmlak aşkar olunduqda dərhal saxlanılır, aidiyyəti üzrə təhvil verilir.

Qeyd edim ki, Nardaran qəsəbəsində xidmətin təşkili həm hərbi hissə, həm də Daxili Qoşunların Baş İdarəsinin əməliyyat qrupları tərəfindən gündəlik yoxlanılır.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor Rüfət Muradov hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, vəzifələrinin icrasına daim nəzarət etdiyini diqqətə çatdıraraq, Nardaran qəsəbəsində xidmətin düzgün təşkilinin kompleks iş olduğunu bildirdi.

Beləliklə, bütün deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, xidmətin düzgün təşkilində komandir heyətinin bacarıqlı və səriştəli olması vacib rol oynayır.

**kapitan Şahin Cəfərzadə**

# MÜALİCƏVİ-PROFİLAKTİK TƏDBİRLƏR DAVAMLI HƏYATA KEÇİRİLİR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidməti personalının fəaliyyəti danılmazdır. 16073 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.



Tibb xidməti rəisi tibb xidməti mayoru İlham Abbasov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitar-gigiyena tədbirlərinin həyata keçirilməsinə, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır. O, 2008-ci ilin iyul ayından Daxili Qoşunların 25033, 17071, 16075 saylı hərbi hissələrində müxtəlif vəzifələrdə xidmət edib. 2021-ci ilin may ayından hazırkı vəzifədədir.

Tibb xidməti rəisi bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Xidmət daxilində keçirilən iclasda gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsində həkim-terapevt gizir Söhrab Muxtarzadə və sanitar-təlimatçı, dezinfektor baş çavuş Seymur Siracov qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.



Ambulator xəstələrin qəbulu, onlara yardım göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması gündəlik olaraq həyata keçirilir. Bundan əlavə, xəsarət alanlara, təxirəsalınmaz həkim nəzarəti altında xəstələrə yardım göstərilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə və sterilizasiyasına xüsusi diqqət yetirilir.

Gün ərzində qarovul xidmətinə, eləcə də hərbi hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə götürülür.

Tibb xidməti mayoru İ.Abbasov onu da əlavə etdi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır. Əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

**kapitan Xədicə Hacızadə**

# QAZANXANA İŞÇİLƏRİ VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ İCRA EDİRLƏR

Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin qazanxanası gündəlik olaraq xidmətini təhlükəsizlik qaydaları üzrə müvafiq təlimatın tələblərinə əsasən təşkil edir. Qazanxanada qazanların və digər avadanlıqların hər zaman saz vəziyyətdə, təmiz və səliqəli saxlanılması təmin olunur.

Maddi-texniki təminat xidmətlərində qazanxana rəisi baş çavuş Xəyyam Musayev 2018-ci ildən hazırkı vəzifəni icra edir. İntizamlı, məsuliyyətli hərbi qulluqçu kimi xarakterizə olunur. Nümunəvi xidmətilə fərqləndiyinə görə hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Qazanxana rəisi kimi qurğuların, avadanlıqların düzgün texniki istismarına, yanacaq materiallarının uçotunun aparılmasına, qazanxanada yanğından mühafizə tədbirlərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

Baş çavuş X.Musayev qeyd etdi ki, qazanlar işə salınmazdan öncə onların və digər avadanlıqların işlək vəziyyətdə olması diqqətlə yoxlanılır. Yalnız qazanxana rəisinin göstərişindən sonra qazanlar və qurğular işə salınır. Qazanxanada qazanın yanma kamerasının qaz yollarında hər hansı bir iş görülərkən təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Bundan əlavə, qazanxananın içini kənar əşyalarla doldurmaq və ya orada hər hansı material və ya əşya saxlamaq qadağandır. Elektrik avadanlıqlarını qısaqapanmadan və artıq yüklənmədən qorumaq, baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə qoruyuculardan istifadə edilir. Qazanxanada qazanların yuyulması



və təmizlənməsi üçün onların dayandırılması müvafiq cədvəl üzrə həyata keçirilir.

O, görülən işlərdə mülki işçilərdən operatorlar Əfqan Xudiyev, Rəşad Nuhiyev və Mübariz Heravatovun zəhmətini yüksək qiymətləndirdi. Onların vəzifələrinin məsuliyyətini dərindən dərk edərək, qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə icra etdiklərini bildirdi.

**kapitan Şahin Cəfərzadə**

# İDMAN KOMANDASININ UĞURLARI HƏR BİRİMİZİ SEVİNDİRİR

"Əsgər" qəzetinin səhifələrində mütəmadi olaraq Daxili Qoşunların İdman komandasının hərbi qulluqçularının nailiyyətləri barədə məlumatlar oxucuların diqqətinə çatdırılır. İstər respublikamızda, istərsə də dünya ölkələrində keçirilən beynəlxalq əhəmiyyətli turnirlərdə bayrağımızı şərəflə dalğalandıran idmançı hərbi qulluqçularımız hər birimizin fəxridir. Bu uğurların davamı olaraq, növbəti qələbə xəbərini Polşa Respublikasında keçirilən dünya çempionatından aldıq.




Sentyabr ayının 8-dən 11-dək Polşa Respublikasının Krakov şəhərində usta cüdoçular arasında keçirilən dünya çempionatında ölkəmizi Daxili Qoşunların İdman komandasında baş məşqçi-baş müəllim mayor Emil Hüseynov təmsil edib. Çempionatda 65 ölkədən 900 idmançı şəxsi birincilik uğrunda mübarizəyə qatılıb. 100 kq çəki dərəcəsində yarışan hərbi qulluqçumuz 5 nəfər rəqibə qarşı öz gücünü sınayıb. Keçirdiyi görüşlərdən 4-nü təmiz qələbəylə başa vuran idmançımız final mərhələsində yalnız fransalı cüdoçuya uduzaraq ilk üçlükdə qərarlaşıb.

Məlumat üçün bildirək ki, dünya çempionatından bürünc mükafatçı olaraq qayıdan mayor E.Hüseynov 2022-ci ilin ötən dövrü ərzində artıq 3 dəfə İdman komandasını layiqli şəkildə təmsil edib.

****

Daha bir qələbə sorağı Daxili Qoşunların İdman komandasının hərbi qulluqçusu kapitan Ruslan Lunevdən gəldi. Artıq bu ad "Əsgər" qəzetinin bütün oxucularına tanışdır. Deyərdim ki, həm tanışdır, həm də doğma. Son illər ərzində ardıcıl olaraq idman arenasında qazandığı uğurları ilə adı qəzetimizin səhifələrindən düşməyən kapitan R.Lunev, sözün əsl mənasında, hər bir hərbi qulluqçuya və idmançıya nümunə olmağı bacarır. Həyatını idmansız təsəvvür etməyən zabit Daxili Qoşunların idman şərəfini layiqincə qoruyur, dövlətimizin bayrağını yüksəklərə qaldırmaq üçün durmadan öz üzərində çalışır.

Əldə etdiyi qələbələrin sayı-hesabı bilinməyən əzmkar idmançımız növbəti dəfə fəxri kürsünün lideri olaraq adını tarixə yazdırmağı bacardı. Belə ki, 13-16 sentyabr tarixlərində Polşanın Vroslov şəhərində keçirilən güllə atıcılığı üzrə



Avropa çempionatında Ruslan 25 m məsafədən sürətli atəş açmaqla, 574 xal toplayaraq yarışın qalibi olub. Məlumat üçün bildirək ki, yarışda 21 ölkədən 58 nəfər idmançı öz gücünü sınayıb. Qazandığı qələbə onun bu sahədə nə dərəcədə təcrübəli olduğunu bir daha sübut edir.

Ölkəmizin himnini və bayrağını dünyada tanıdan, Daxili Qoşunların idman şərəfini layiqli şəkildə qoruyan idmançılarımız onlara yaradılan şəraitə görə Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazova və Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədova dərin minnətdarlıqlarını bildirərək, bundan sonra da dünya ölkələrində uğurlu nəticələri ilə xidmət etdikləri qurumu layiqincə təmsil edəcəklərinə söz verdilər.

Sözsüz ki, bir-birinin ardınca qazanılan bu qələbələr hər birimizi sevindirir, qəlbimiz fəxarət hissi ilə dolur. Mətbuat xidməti olaraq biz də idmançı hərbi qulluqçularımızı səmimi qəlbdən təbrik edir, onlara yeni uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ABŞ Ordusuna İsveçrə istehsalı sualtı avtomatlar verilib

ABŞ Ordusuna 315 ədəd 9×19 millimetrlik APC9K sualtı avtomat silahı təhvil verilib. Ordu.az xəbər verir ki, bu barədə "The Drive" nəşri məlumat yayıb.



Yeni silah sisteminin tədarükü və tətbiqi 2019-cu ildə ABŞ Ordusu ilə İsveçrənin B&T şirkəti arasında 2,5 milyon dollarlıq müqavilənin bir hissəsidir. Müqaviləyə əsasən, ABŞ 1000-ə qədər APC9K avtomatı əldə edə biləcək. Silahların xüsusi beynəlxalq əməliyyatlar üçün istifadə ediləcəyi bildirilir.

APC9K dəqiqədə maksimum 1080 mərmi atəş sürətinə malikdir.

### Türkiyə Hərbi Dəniz Qüvvələrinə "Aksungur" zərbə tipli PUA təhvil verilib

"Aksungur"un Türkiyə Hərbi Dəniz Qüvvələrinə ilk tədarükü 2020-ci ilin oktyabr ayında həyata keçirilib. Sonrakı aylarda 5 ədəd "Aksungur" təhvil verilib.



Fərqli faydalı yüklərlə imkanları genişləndirilən "Aksungur"a müxtəlif döyüş sursatları, sensorlar və rabitə vasitələri inteqrasiya edilir. 2022-ci ildə "Aksungur"dan TÜBİTAK SAGE istehsalı "Kuzgun-SS" sursatının buraxılması planlaşdırılır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Vurğun Abbasova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı mayor Anar Əhmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000